

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 yanvar 2022-ci il №3 (2614) https://mod.gov.az Qiyməti 30 qəpik

*Reportaj*

## Bu Qələbə tarixdə bənzəri olmayan qələbədir



***2020-ci il Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və məğrur xalqımızın dəstəyi ilə Azərbaycan Ordusunun qazandığı Böyük Qələbə ili olaraq tarixləşdi. Həmin il sentyabrın 27-də başlayan və 44 gün davam edən qalibiyyət döyüşü 50 milyondan çox soydaşımızı müsəlləh əsgər etdi. "Dəmir yumruq" əməliyyatı təkcə öz yurdundan tərkidiyar olan məcburi köçkünlərin arzusu deyildi, bütün həmvətənlərimizin, soydaşlarımızın qəlbindəki Qarabağ həsrətinə son qoyulacağının carçısı idi. Elə buna görə də yaşından, vəzifəsindən və yaşadığı yerdən asılı olmayaraq dünya azərbaycanlılarının ürəyi döyüş meydanında Azərbaycan əsgəri ilə birgə döyünürdü.***

Yolumuz bu dəfə də, həsrətinə son qoyulan Vətən torpaqlarınadır. Avtomobil şütüyür, ətrafa bir göz qırpımında nəzər salıram. Dağılmış evləri, viran qoyulmuş torpaqları gördükcə heyrətlənir, heyrətləndikcə düşmənə nifrətim daha da artır. Düşmən vandalizminin və barbarlığının təzahürü olan dağıdılmış qəbir daşları, yerlə-yeksan olunmuş təbiətin yaddaşımızdan silinməsi və unudulması çətin səhnələrdəndir. Bir zamanlar yaşıllığı, əsrarəngiz təbiəti ilə göz oxşayan bu yerlərdə isti yay günündə daldalanmağa bir ağac belə qalmayıb. Bütün bunlar düşmənin xislətindən xəbər verir. Lakin ölkə başçısının tapşırığı ilə aparılan quruculuq və bərpa işlərinin də şahidi oluruq ki, görülən işlər gələcəyə nikbinliyimizi və bu ərazilərin yenidən gözəlləşəcəyinə inamımızı daha da artırır. Qısa müddət ərzində artıq böyük işlərin görülməsi bizi bir daha əmin edir ki, bir zamanlar bu torpaqların həqiqi sakini olmuş soydaşlarımızın Böyük Qayıdışı ilə burada həyat yenidən canlanacaq və təbiət öz gözəlliyinə yenidən qovuşacaqdır. Bu fikirlər üzümə gülüş qondurur. Bu gülüşü Azərbaycan xalqına qazandıranları düşünürəm. Düşüncələr yolun necə bitdiyini hiss etdirmir. Mənzil başına çatırıq. İlk öncə zabit Ruhi Cavadovla tanış oluruq və kəlmələşirik.

O, söhbət əsnasında ölkəmizdə aparılan müasir ordu quruculuğundan danışır və bildirir ki, regionun ən güclülərindən olan Azərbaycan Ordusunda xidmət etmək qürurvericidir. "Beynəlxalq hərbi müstəvidə olduğu kimi, Azərbaycan Ordusunda da müasir standartlara uyğunlaşmaq istiqaməti prioritet təşkil edir. Belə ki, ölkələrin gücünün və geosiyasi təhlükəsizliyinin qarantı onun ordusudur. Sevindirici haldır ki, bu gün Azərbaycan Ordusu dünyanın qüdrətli orduları sırasındadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilərimizlə görüşündə demişdi: "Bizim şanlı ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir". Həqiqətən də, silahlanmamızda olan modern idarəetmə, innovativ hərbi texnologiyalardan uğurla istifadə edən savadlı kadrlarımız haqq savaşında müstəsna rol oynadı.

(Ardı 3-cü səhifədə)



Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində taktiki-xüsusi təlimlər keçirilib

2-ci səhifədə



“Xalqımızın etimadını doğrultduğumuz üçün qürurluyuq”

4-cü səhifədə



Gender bərabərliyi cəmiyyətin mənəvi dünyasına düşən işıqdır

5-ci səhifədə



“Komando hərbi hissəsində xidmət etməkdən qürur duyuram”

7-ci səhifədə

# Azərbaycanın Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Şanlıurfanın Akçakale bölgəsində xaincəsinə edilmiş terror hücumu nəticəsində, şanlı türk ordusunun 3 hərbi qulluqçusunun şəhid olması xəbəri məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və Sizi var gücümüzlə dəstəkləyirik.

Şəhid olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

# Tabor komandirləri ilə toplanışlar keçirilir

*2022-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunda tabor, divizion komandirləri və onların müavinləri ilə təlim-metodiki toplanışlar keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışlarda zabitlərin bilik və bacarıqları, eyni zamanda, fiziki hazırlığı qiymətləndirilir, müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri təkmilləşdirilir.

Keçirilən toplanışların əsas məqsədi zabitlərin bölmələri idarəetmə üzrə nəzəri bilikləri və peşəkarlıq səviyyələrinin artırılmasıdır.

# Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində taktiki-xüsusi təlimlər keçirilib



***44 günlük Vətən müharibəsində döyüşlər zamanı Azərbaycan Ordusuna müqavimət göstərə bilməyən ermənı hərbi birləşmələri hərbi texnika və silah-sursatları döyüş meydanında ataraq qaçıblar. Ordumuz tərəfindən döyüş meydanında düşməndən götürülən çoxlu sayda hərbi qənimətlər arasında yer alan 20 mm-lik "Zastava" zenit-artilleriya qurğuları təmir edilərək silahlanmaya daxil olunub. Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində keçirilən taktiki-xüsusi təlimlərdə "Zastava" qurğularının heyətləri düşməndən fərqli olaraq yüksək peşəkarlıq və hərbçi ustalığı nümayiş etdirdilər.***

"Şərti düşmənin hava zərbələrinin dəf edilməsi" mövzusunda keçirilən taktiki-xüsusi təlimlərdə zenit-raket, radiotexniki və zenit-artilleriya bölmələri "Həyəcan" siqnalı ilə qaldırılıb. Təlimin planına



əsasən hücum edən bölmələrimiz şərti düşmənin pilotsuz uçuş aparatları və aviasiya vasitələrinin hava hücumu ilə mübarizə aparmalı olub. İrəliləyən bölmələrimizin havadan müdafiəsini təmin etmək məqsədilə zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri tərəfindən müxtəlif hündürlük diapazonunda fəaliyyət göstərən şərti hava düşməninin hücumunun qarşısının alınması tapşırıqları icra edilib.

Vətən müharibəsində hərbi qənimət olaraq ələ keçirilən və təmir edilərək silahlanmaya daxil edilən 20 mm-lik "Zastava" zenit-artilleriya qurğularından döyüş atışları yerinə yetirilib. Aşağı məsafədən uçan hava hücum vasitələrini məhv etmək üçün təyin edilən və MT-LB tırtıllı döyüş texnikasına quraşdırılmış 20 mm-lik "Zastava" zenit-artilleriya qurğuları ilə şərti düşmənin hava hücum vasitələri və yerüstü hədəfləri məhv edilib.

Aviasiya vasitələrinə qarşı döyüş işi üzrə təlimatın və atəş qaydalarının tələblərinə uyğun fəaliyyətlərin icra olunduğu taktiki-xüsusi təlimlərdə şəxsi heyətin real döyüş şəraitində düşmənin hava hücum vasitələrinə qarşı peşəkarlıqla mübarizə aparmaq vərdişləri təkmilləşdirilərək qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Təlimin döyüş atışlı mərhələsi başa çatdıqdan sonra 20 mm-lik "Zastava" zenit-artilleriya qurğularının təhkim edildiyi bölmələrimizin birində zabit və əsgərlərin təəssüratlarını öyrənmək üçün həmsöhbət oldum. Bölmənin zabiti Təhmasib Rüstəmov bildirdi ki, "Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusu tərəfindən hərbi qənimət kimi götürülmüş 20 mm-lik "Zastava" zenit-artilleriya qurğularında qısa müddətdə istismar qaydalarına uyğun təmir işləri aparılıb. Qurğuların texniki vəziyyətinin və istismara yararlılığının müəyyən edilməsi məqsədilə mütəxəssislərimiz tərəfindən sınaq atışları keçirilib. Sınaq atışlarından sonra 20 mm-lik "Zastava" zenit-artilleriya qurğularının təyinatı, ümumi quruluşu, istismar və döyüş tətbiqi qaydaları şəxsi heyətə öyrədilib. Tədris prosesinə cəlb edilmiş şəxsi heyətin nəzəri bilikləri və praktiki bacarıqlarının yoxlanılması məqsədilə təlim atış çalışmaları yerinə yetirilib. Qurğulara təyin edilmiş heyətlərin nəzəri bilikləri və praktiki vərdişləri yüksək səviyyədə olduğundan atışın nəticələri müsbət qiymətləndirilir. Gələcəkdə də 20 mm-lik "Zastava" zenit-artilleriya qurğularının istismarı və döyüş tətbiqinin təkmilləşdirilməsi istiqamətində tədbirlər plana uyğun olaraq davam etdiriləcək".

Zenit-artilleriya bölməsinin zabiti Yunis Tarverdiyev real döyüş şəraitində hava hücu-



mundan müdafiə döyüşünün aparılması zamanı heyətlərin yüksək peşəkarlıq və ustalıq nümayiş etdirdiyini vurğuladı. Müsahibim bölmənin əsgərlərindən bir neçəsinin adını çəkərək bildirdi ki, Elçin, Nicat, Zahir, Səyyad, Mahmud, Səfdər, Samiq və digərləri, ümumiyyətlə isə, bütün şəxsi heyət təlimdə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün yüksək bacarıq nümayiş etdirdi.

Müasir ümumqoşun döyüşünün çevik dəyişən şəraiti bütün heyətdən zenit-artilleriya bölmələrinin manevr qabiliyyətinin yüksək olmasını tələb etdiyindən təlimlərdə qısa zamanda qurğulardan hava hədəfinə atəş açaraq məhv edilməsi və çətin dağlıq şəraitdə yerdəyişməsi tapşırıqları yerinə yetirilir. Ordu aviasiyası və pilotsuz uçuş aparatlarının praktiki uçuşlarla məşq və təlimlərə cəlb edilməsi komandir və döyüş heyətlərinin real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayır. Obyektlərin və birləşmələrin hava hücumundan müdafiəsini təmin edərkən qorunan ümumqoşun birliklərinin döyüş fəaliyyətlərindən asılı olaraq zenit-raket qoşunlarının hissə və bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri arasında qarşılıqlı əlaqə yaradılır. Atışlar zamanı isə əsas diqqət alçaq və ən alçaq hündürlüklərdə uçan, qəfil peyda olan, eləcə də yerüstü hədəflərin vaxtında aşkar olunaraq məhv edilməsinə yönəldilir.

Beləliklə, 24 saat döyüş növbətçiliyi aparan Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə birləşmə, hissə və bölmələrində hava məkanımızı müdafiə etmək kimi şərəfli xidmətləri ilə fəxr edən hərbi qulluqçularımız Vətənimizin hava sərhədlərini etibarlı müdafiə edir və uğurlu döyüş növbətçiliyi aparırlar.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Bu Qələbə tarixdə bənzəri olmayan qələbədir

(Əvvəli 1-ci səhifədə)

Ordu quruculuğunda qazanılan uğurun banisi, ümummilli lider Heydər Əliyevdir. Çünki ordu quruculuğundakı dirçəliş məhz Ulu Öndərin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə qısa zamanda hərbi təhsil sistemində islahatlar aparıldı, ordumuzun təcrübəli zabit kadr heyəti ilə komplektləşdirilməsi prosesində mühüm işlər görüldü. Vahid komandanlığın yaradılması və onun təkmilləşdirilməsinə yönəlik fəaliyyətlər planı hazırlandı və uğurla yerinə yetirildi. Əbədiyaşar komandan Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hərb sahəsində daha yeni uğurlar əldə edildi. Dünyanın aparıcı ordularına və müdafiə sənayesinə malik ölkələrlə imzalanmış əməkdaşlıq müqavilələrinə əsasən, arsenalımıza müasir tələblərə cavab verən silah və hərbi texnikalar daxil edildi. Həmçinin ölkəmizin müdafiə sənayesi gücləndirildi. Hazırlanan





modern silahlar təkcə ölkəmiz ərazisində deyil, ölkə hüdudlarından kənarda da böyük rəğbət qazandı. Ötən illər ərzində hərbi qüdrətimizin artması, müdafiə qabiliyyətimizin yüksəldilməsi üçün saysız-hesabsız işlər görüldü. Nəhayət, bütün bu hazırlıqlar və görülən işlər öz nəticəsini hərb tariximizin şərəfli səhifəsinə çevrilən "Dəmir yumruq" əməliyyatı ilə göstərdi. Hərbi sahəyə olan xüsusi diqqətin təzahürü idi ki, güclü Azərbaycan Ordusu tarixi torpaqlarımızı 44 gün ərzində işğaldan azad etdi".

Zabitlə söhbətimizi başa çatdırdıqdan sonra gizir Mirismayıl Zeynalovla kəlmələşirik. "Azərbaycan əsgəri əliyalın, südəmər körpələrimizin, ahıl yaşlılarımızın, qadınlarımızın başına açılan və heç bir insanlığa sığmayan erməni terrorunun, barbarlığının gecikmiş, amma layiqli cavabını verdi. Düşmən öz xislətindən döyüşlər vaxtı da əl çəkmədi. Döyüş meydanından kilometrlərcə uzaqda olan mülki əhaliyə qadağan olunmuş silahlardan atəş açdı. Bunlar xalq-ordu birliyini, qələbə istəyini sarsıda bilmədi. Ali Baş Komandanının və xalqının etimadını layiqincə doğrultmaq üçün Azərbaycan əsgəri vaxtından, vədəsindən asılı olmayaraq döyüş meydanında düşmənə aman vermirdi. Şuşa şəhərinin işğaldan azad olunması da, qələbəni təmin edən hadisələrdən biri oldu. Müxtəlif cəbhələrdə olsaq da, hər gün işğaldan azad olunan və azad edilən kəndlərin müjdə xəbərləri bizi daha böyük uğurlara ruhlandırırdı, sevin-



cimizi daha da artırırdı. Bu tarixi qələbə Vətən həsrətinə son qoydu. O günlər hər bir azərbaycanlının gözlədiyi günlər idi, şəhidlərimizin qisasının alındığı günlər idi, ata-babalarımızdan bizə miras qalan tarixi ərazilərimizin Vətən torpağına birləşdiyi günlər idi. Böyük Qələbə qədirbilən Azərbaycan xalqı tərəfindən həmişə yüksək qiymətləndiriləcək, tariximizdə əbədi yaşayacaq və gələcək nəslə layiqincə və lazımınca aşılanacaq. Qazanılan Zəfər gənclərimiz üçün əsl qəhrəmanlıq, rəşadət və igidlik nümunəsidir".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məhəmməd Əliyev işğaldan azad olunan ərazilərdə yaradılan şəraitdən və burada xidmət edən əsgərlərimizin vətənpərvərlik hissindən danışır. "Tarixi Zəfər qazanan rəşadətli ordumuzun azad etdiyi tarixi torpaqlarımızda yerləşən bölmələrimizin sosial-məişət şəraitinin yaxşılaşdırılması fonunda mühüm fəaliyyətlər planı həyata keçirilir. Görülən işlərin məntiqi nəticəsidir ki, qısa müddət ərzində xidmət etdiyimiz bölmədə maddi-texniki təminat güclənib və sosial rifahımız xeyli yaxşılaşdırılıb. Xidmət etdiyimiz bölgədə xidmətin düzgün təşkili üçün arzuolunan şərait mövcuddur. Hərbi qulluqçuların xidməti tapşırıqlardan başqa, asudə vaxtını səmərəli təşkil etmək, fiziki hazırlığını nəzarətdə saxlamaq, bir sözlə, təsdiq olunmuş gününün nizam qaydasına uyğun tədbirlərin icrası üçün hər cür şərait yaradılıb. Bizim üzərimizə düşən əsas



vəzifə isə tabeliyimizdə olan şəxsi heyəti əsl döyüşçü kimi formalaşdırmaqda komandirlərimizin qarşıya qoyduğu tapşırıqların öhdəsindən layiqincə gəlməkdir. Əsgərlər dərs və məşğələlərdə öyrəndikləri nəzəri bilikləri, təlimlərdə praktiki icra edərək özünə inam hissini artırır və Vətən müdafiəsində dayanan təcrübəli döyüşçü olur. Bölməmizdə böyük qələbə ovqatı, ruh yüksəkliyi mövcuddur. Əsgərlərin hər biri üzərinə düşən məsuliyyəti dərindən hiss edərək müqəddəs amala xidmət etməkdən qürur duyur. Bu gün xidmət etdiyimiz tarixi ərazilərimizi göz bəbəyi kimi qoruyan oğullarımız anlayırlar ki, bu torpaqların hər qarışı uğrunda şiddətli döyüşlər gedib və torpaqlarımızın bütövlüyü uğrunda canını qurban verən Vətən oğullarımız olub. Və bilirik ki, şəhid qanı ilə torpaq vətənləşir. Hər birimiz düşmənə nifrət, Vətənə sədaqət hissi ilə xidmət edirik. Xalqımız əmin olsun ki, bu gün Vətən müdafiəsində duran igid oğullarımız məhz onların firavanlığı üçün düşməni nəzarətdə saxlayır, gecə-gündüz keşik çəkirlər. Öz məkrli niyyətindən əl çəkməyən düşmənin başını hər zaman əzməyə qadir, Ali Baş Komandanına və xalqına sədaqətlə bağlı olan qalib ordumuz, qalib əsgərlərimiz var.

Əsgərlər Rail Qurbanov, Rabil Səbizadə, Sərxan Aycalovla tanış oluruq və onlarla danışdıqdan sonra bir daha əmin oluruq ki, Vətən müdafiəsi etibarlı əllərdədir. Onların hər birinə bu şərəfli missiyada uğurlar arzulayıb, sağollaşırıq. Bu mötəbər günləri yaşamış xalq olaraq Zəfər salnaməmizlə hər birimiz qürur duymalıyıq. Qürur duymalıyıq ki, biz rəşadətli ordusu olan qalib ölkənin vətəndaşlarıyıq. Dünya tarixində belə hadisələr tez-tez olmur. Bunun üçün də biz Zəfər tariximizi layiqincə yaşatmalı və gələcək nəslə düzgün ötürməliyik ki, onlar da əcdadları kimi bu torpağın hər qarışını müqəddəs Vətən bilsin, onu göz bəbəyi kimi qorusun. Çünki Vətənin hər qarışı bizə əzizdir. Torpaq şəhid qanı ilə vətənləşir. Biz xalq olaraq Böyük Qələbəyə gedən yolda çox qurbanlar vermişik. Qazanılan qələbə ilə Zəhra balamızın, Mübariz İbrahimovun, Murov qartalı Raquf Orucovun, general-mayor Polad Həşimovun və onların timsalında bütün şəhidlərimizin qisası alındı. Azərbaycan tarixinin şanlı səhifələrinə "Zəfər salnaməsi" yazan oğullarımızdan nə qədər danışsaq azdır. Canını və qanını Vətən torpaqlarının azadlığına, ölkənin suverenliyinə, xalqın firavanlığına qurban verən şəhidlərimizin ruhu qəlbimizdə əbədi yaşayır və tarix boyu qədirbilən soydaşlarımız tərəfindən yüksək ehtiramla yad ediləcək. Şəhidlər ölməz, Vətən bölünməz!

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçumuz şəhid olub

Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yanvarın 11-i günorta saatlarında Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir!

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən müvafiq tədbirlər nəticəsində qarşı tərəf susdurulub.

Baş verən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Yeni tədris ilində komandoların təlim-məşqləri keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində 2022-ci tədris ilinin ilk təlim-məşqləri keçirilib.*

Plana uyğun olaraq kəşfiyyat məlumatı əsasında şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyən edilib. Şəxsi heyət mümkün təxribatların qarşısını almaq məqsədilə daimi dislokasiya məntəqəsini tərk edərək əməliyyat rayonu istiqamətində irəliləyib.

Komandolar tərəfindən şərti düşmənin təxribat-diversiya qrupunun mühasirəyə alınaraq zərərsizləşdirilməsi və tapşırıqların icrası zamanı saxlanılan şəxslərlə bağlı beynəlxalq humanitar hüquq norma və prinsipləri çərçivəsində tədbirlərin görülməsi üzrə fəaliyyətlər icra olunub.

Şəxsi heyətin çətin iqlim şəraitində və kəskin relyefli ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsi, həmçinin komando bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunmasına dair tədbirlər planı hazırlanıb

*"Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsinə dair Müdafiə Nazirliyinin 2022-ci tədris ili üçün tədbirlər planı hazırlanıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu istiqamətdə keçiriləcək tədbirlər çərçivəsində mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz irsin müdafiə edilməsi və digər mövzulara dair ətraflı fikir mübadiləsi aparılacaq.

Hərbi qulluqçuların müharibə dövründə mədəni mülkiyyətin mühafizəsi məsələləri ilə bağlı maarifləndirilməsi işləri həyata keçiriləcək.

Bundan başqa hərbçilərimiz işğaldan azad edilən ərazilərdə dağıdılmış mədəni abidələrin vəziyyəti ilə bağlı beynəlxalq təşkilatların diqqətinə çatdırılması istiqamətində aparılan fəaliyyətlər barədə də məlumatlandırılacaq.

*Təlim*

# "Xalqımızın etimadını doğrultduğumuz üçün qürurluyuq"





Müzəffər Ali Baş Komandanın döyüş əmri ilə rəşadətli Azərbaycan Ordusu 27 sentyabr səhər saatlarında bütün cəbhə boyu Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi növbəti təxribatının qarşısını almaq məqsədilə əks-hücum əməliyyatına başladı. Döyüşlərin ilk anlarından cəsur əsgərlərimiz düşmənə göz açmağa macal vermədilər. Onların şücaəti nəticəsində mənfur düşmən itki verərək geri çəkildi. İllərlə işğalda olan torpaqlarımız ard-arda əsl sahibinə qovuşurdu. Vətən sevgisindən güc alan əsgərlərimiz qorxu bilmədən düşmən üzərinə şığıyırdılar. Bunun nəticəsidir ki, Ali Baş Komandanın rəhbərliyi ilə cəmi 44 günə işğala son qoyuldu. Haqq savaşımızda bütün qoşun növləri qarşıya qoyulan tapşırıqların öhdəsindən məharətlə gəldi.

"N" hərbi hissəsində Vətən müharibəsində düşmənə ağır zərbələr vuran tank heyəti ilə tanış olduq. Gizir Tural Söhbətov gənc yaşlarından hərbçi olmaq arzusunda olub. Xidmətə başladığı gündən torpaqlarımızın azadlığı uğrunda gedəcək döyüşlərdə iştirak etmək istəyib. 2020-ci ilin sentyabrında gizir T.Söhbətov da Füzuli istiqamətində gedən döyüşlərə qatılır. Döyüşlərin ilk günündə komandiri olduğu tank düşmən minasına düşərək partlayır. Daha sonra isə "Faqot" tipli tank əleyhinə raket kompleksinin hədəfinə çevrilərək vurulur. Tankın heyəti bu zərbə nəticəsində müxtəlif dərəcəli xəsarətlər alsa da, hərbi qənimət kimi əldə edilən düşmən tankı ilə əməliyyatları davam etdirir. Füzulidən sonra Qubadlı istiqamətində gedən ağır döyüşlərə qatılırlar. Burada da Tural xüsusi peşəkarlıq göstərir və düşmən hədəflərini dəqiq atəşlə məhv edir. Müxtəlif dərəcəli xəsarətlər almağına baxmayaraq, döyüşdən çıxmaq haqqında düşünmür. Cəbrayıl, Hadrut və Şuşa istiqamətində gedən əməliyyatlarda da vətənpərvər döyüşçü dəqiq atəşlə işğalçılara sarsıdıcı zərbələr vurur. Noyabrın 5-də Daşaltı istiqamətində ikinci dəfə düşmən hədəfinə tuş gəlir. Bu dəfə isə döyüşü davam etdirə bilməməyin təəssüfünü yaşayır.

Gizir Tural Söhbətov Vətən müharibəsində dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Gizir Tural Söhbətov bildirdi ki, döyüşlərdə qazandıqları uğurlarda komandirlərin, heyət üzvlərinin rolu danılmazdır. "Komandirlərimizin bizə öyrətdiklərindən, təcrübələrindən bəhrələnərək, döyüşlərdə düşmənə qalib gəldik. Ən çətin və ekstremal şəraitdə verilən tapşırığın öhdəsindən gəlməyi bacardıq. Bunun nəticəsidir ki, düşmən məğlubiyyətə düçar oldu. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında düşməni məhv etdi".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ramil Abbasov da İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. O, Vətən müharibəsi başladığı gündən etibarən Füzuli rayonunun azadlığı



uğrunda gedən döyüş əməliyyatlarına qatılır. Çətin tapşırıqların öhdəsindən layiqincə gələrək, durmadan irəliləyir. Cəbrayıl və Qubadlıya qədər vuruşa-vuruşa gedən cəsur döyüşçü əməliyyatlarda böyük hünər göstərib. Dəfələrlə ağır vəziyyətlərdən çıxmağı bacarıb. Kiçik çavuş Ramil Abbasov İkinci Qarabağ döyüşləri zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi və verilən bütün tapşırıqların öhdəsindən bacarıqla gəldiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

- Tarixi qələbəmizlə bağlı müzəffər Ali Baş Komandan demişdi: "...Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!". Qürur duyuram ki, tarixi qələbəmizin əldə edilməsində mənim də payım var. Həmişə o günləri fərəhlə xatırlayacam", - kiçik çavuş Ramil Abbasov dedi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Vasif Zeynalov Ağcabədi rayonunda dünyaya göz açıb. Hərbi formaya olan hörmət və sevgisi onu ordu sıralarına gətirib. Xidmətə başladığı ilk gündən yuxarı komandirlərin verdiyi bütün əmr və tapşırıqları məsuliyyətlə yerinə yetirir. Peşəkar zabitlərin köməkliyi ilə hərbi sirlərə dərindən yiyələnib. Sentyabrın 27-dən başlayan döyüşlərdə şücaət nümayiş etdirib. Füzuli, Cəbrayıl və Qubadlı rayonları uğrunda gedən ağır döyüş əməliyyatlarında iştirak edərək, şücaət və igidlik göstərdiyinə görə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Vasif Zeynalov Ali Baş Komandanın müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb.

- Torpaqlarımızı işğalçılardan azad etdiyimiz, xalqımıza illərdir gözlədiyi Qələbə gününün sevincini yaşatdığımız üçün sevncliyəm. Çünki hər bir azərbaycanlı bu anı illərdir səbirsizliklə gözləyirdi. Xalqımızın bizlərə olan etimadını bir daha doğrultduğumuz üçün qürurluyam. Fəxr edirəm ki, regionun ən güclü Azərbaycan Ordusunun sıralarında xidmət edirəm.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Gender bərabərliyi cəmiyyətin mənəvi dünyasına düşən işıqdır



***Gender anlayışı kişi və qadınların cəmiyyət həyatında sosial statusunu, funksiya və rolunu ifadə edir. Yəni, qadın və kişilər cəmiyyət həyatında eyni sosial rola, eyni sosial funksiyalara malikdirlər. Bu gün Azərbaycanda gender məsələləri ilə bağlı dövlət siyasəti qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlib.***

***Mövzu ilə bağlı suallarımızı Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova cavablandırdı.***

**- Zümrüd xanım, mövzumuz gender bərabərliyi olduğundan əvvəlcə məsələnin təsviri ilə başlayaq. Qadınlarla əlaqəli olan bu məsələnin əsas mahiyyəti nədən ibarətdir?**

- Azərbaycan qadını tarixin bütün mərhələlərində mənəvi-əxlaqi keyfiyyətləri ilə daim seçilib və xalqın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayıb.

Bu, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra da cəmiyyətin inkişafı baxımından olduqca həssas səviyyədə yaşadıldı. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, siyasi-hüquqi, sosial-iqtisadi sahələrdə, beynəlxalq münasibətlərdə yeni nailiyyətlərin əldə olunmasında qadınlar da yüksək təşəbbüskarlıq və fəallıq göstərdilər. Bu fəallıq tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyəti - qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılması ilə bağlıdır. Bu şəraitin əsasını böyük tarixi şəxsiyyət Heydər Əliyev qoymuşdu. Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycan qadınının cəmiyyətdə nüfuzu da yüksəldi, gender bərabərliyi üçün nəzəri real zəmin də yarandı. Ulu Öndər milli maraq və mənafelər müstəvisində qadınlarla bağlı dövlət siyasətini təmin edərək Azərbaycan qadınının şərəfli adının daim ucalarda bərqərar olmasına çalışıb. "Adın şərəflidir sənin, ey qadın!" səmimi müraciəti cəmiyyətdə öz real əksini tapmışdı.

**- Dediklərinizdən belə başa düşürəm ki, gender bərabərliyi məsələsi daim ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olub. Gender siyasətinin tətbiqi və inkişafı üçün daha hansı işlər görülüb?**

- 1998-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin (indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) yaradılması, "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamları, 2000-ci ildə "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman Ulu Öndərin Azərbaycanda gender bərabərliyinin təminatçısı olduğunun zəmanətidir.

2006-cı ildə ölkəmizdə qəbul edilən "Gender bərabərliyinin təminatı haqqında" qanuna görə, Azərbaycanda cinsi mənsubiyyətə görə ayrı-seçkilik qadağan olunub. Ölkədə gender siyasətinin tələblərinə uyğun olaraq qadınlarla kişilərin hüquq bərabərliyi təmin edilib. Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycanda gender bərabərliyi istiqamətində atılan addımlar, görülən işlər ölkəmizdə demokratik cəmiyyətin qurulmasında mühüm arqument oldu.

**- Ümummilli Liderin siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycanda gender məsələləri ilə bağlı dövlət siyasəti qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlib. Bu barədə fikirlərinizi bilmək istərdik.**

- Bəli, günümüzdə dövlət qadın siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yeni meyarlarla zənginləşdirilərək yüksək səviyyədə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə bölgənin lider dövlətinə çevrilmiş Azərbaycanda gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklər diqqəti çəkib. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Azərbaycanda qadın hərəkatının geniş vüsət almasında, xanımlarımızın nəcib və xeyirxah məqsədlər naminə sistemli və ardıcıl fəaliyyətinin genişlənməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Mehriban xanım hüquqi bazanın təkmilləşdirilməsi, bərabər hüquqların təmin edilməsi üçün öz geniş fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Dünya ictimaiyyəti onun timsalında dərin bilikli və intellektli ziyalı, peşəkar siyasətçi, humanist qadın obrazı görür. Görür və sevir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva hər zaman Azərbaycan qadınlarının cəmiyyətin ictimai-siyasi və mədəni həyatında mühüm fəaliyyətə və mövqeyə malik olduğunu xüsusi vurğulayır. Mehriban xanımın çoxşaxəli fəaliyyəti cəmiyyətimizdə qadınlara münasibətdə Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılması, xanımların ictimai həyatda fəal iştiraka cəlb edilməsi baxımından müstəsna dəyərləndirilməlidir.

**- Hazırda fəaliyyət göstərdiyiniz Müdafiə Nazirliyində gender siyasəti məsələləri hansı səviyyədə tənzimlənir? Bu istiqamətdə hansı işlər görülür?**

- Azərbaycan qadını ictimai həyatın bütün sahələrində fəaldır, ictimai rəyin yaranmasında və formalaşmasında da iştirak edir. Qadınların məşğulluq səviyyəsi Müdafiə Nazirliyində də yüksəkdir.

Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində gender bərabərliyi, şəxsi heyətin insan hüquqları və azadlıqlarının təminatı sahəsində görülən işlər Azərbaycan Respublikasının Konstitusiyası əsas götürülərək demokratik dövlətlərin təcrübələri öyrənilməklə daha da təkmilləşdirilir. Əhəmiyyətini nəzərə alaraq aparılan işlərin dönməzliyini təmin edirik. Azərbaycan Ordusunda son illərdə gender bərabərliyinin təmin olunması istiqamətində ciddi addımlar atılıb. Birlik, birləşmə, hərbi hissələrdə qadın hərbi qulluqçularla mülki işçilərin hüquqlarının daha etibarlı müdafiəsi və təbliği, o cümlədən onların hərbi hissənin ictimai-siyasi həyatında iştirakının dəstəklənməsi, qadın və kişilər arasında bərabər imkanlara nail olunması istiqamətində davamlı, əhatəli və sistemli tədbirlər həyata keçirilir. Belə ki, Müdafiə Nazirliyində 2019-cu ildən qadınların hüquqlarının müdafiəsi, sosial və ailə-məişət problemlərinin həlli ilə yaxından məşğul olan şöbəmiz gender bərabərliyinin təmin edilməsi, qadın zorakılığının bütün formalarının qarşısının alınması üzrə mütəmadi tədbirlər həyata keçirir. Belə tədbirlər sisteminə şəxsi heyətin maddi-məişət şəraiti, sağlamlığı və mövcud nöqsanların aradan qaldırılması üçün görüşlər də daxildir. Bu, problemlərin aradan qaldırılmasında, yerində həll olunmasında kifayət qədər gərəkli olur.

**- Növbəti illərdə hansı fəaliyyət planınız var? Şöbə olaraq qarşınıza qoyduğunuz prioritet məsələlər nədən ibarətdir?**

- BMT-nin 1325 saylı qətnaməsinə əsasən Azərbaycan Respublikasında gender bərabərliyi üzrə 2019-2024-cü illər üçün Milli Fəaliyyət Planı təsdiqlənib. Mən bu qətnamənin Müdafiə Nazirliyi üzrə komissiyanın üzvüyəm. Şöbə olaraq gender məsələləri ilə bağlı keçirilən konfranslarda iştirak edirik. Keçən ilin oktyabrında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində 70-ə yaxın dövlətin iştirakı ilə təşkil edilmiş təlimdə baş məsləhətçimiz dövlət qulluqçusu Sairə Rəsulovaya "Dövlət qulluğunda gender bərabərliyi: mövcud vəziyyətlər və çağırışlar" mövzusunda uğurlu iştirakına görə sertifikat təqdim olunub. Həmçinin NATO-nun Beynəlxalq Hərbi Qərargahının gender məsələləri üzrə müşavir ofisi Alyansa üzv və Tərəfdaş ölkələrin gender perspektivlərinin milli hesabatları barədə konfransda iştirak etmişik.

Qadın hərbi qulluqçuların və mülki işçilərin ailə münaqişəsi zəminində baş verən problemlərin, xidmət yerində yaranan və yarana biləcək neqativ halların aradan qaldırılması, boşanma hallarının qarşısının alınması məqsədilə şikayətlərin dinlənilməsi və lazımi dəstəyin göstərilməsi, gənc və çoxuşaqlı hərbçi ailələrinə mənəvi yardım göstərilməsi, qadın hərbi qulluqçuların ailələri ilə aparılan işin səmərəliliyini və ümumi vəziyyətin öyrənilməsi qarşımızda duran prioritet məsələlərdəndir.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə bilavasitə əməkdaşlıq edirik. Bu əməkdaşlıq səmərəli fəaliyyətimiz üçün geniş zəmin yaradır.

**- 2020-ci il dövlətçilik tariximizdə Zəfər ili kimi əbədiləşdi. Bu mühüm tarixin yazılmasında qadın hərbi qulluqçular da fəaliyyət göstəriblər. Onların fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Vətən müharibəsi Azərbaycan xalqının kimliyini, dövlətinin gücünü təsdiqlədi, nüfuzunu artırdı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm Qələbə qazandı. Ali Baş Komandanımızın düşünülmüş strategiyası, siyasi iradəsi və qətiyyəti sayəsində ordu ilə xalqın sarsılmaz birliyi təmin olunaraq qazanılan tarixi Zəfər heç vaxt unudulmayacaq.

"Aslanın erkəyi dişisi olmaz" deyib atalarımız. Bu Zəfərin qazanılmasında ordunun bütün sahələrində fəaliyyət göstərən qadınlarımızın da rolu danılmazdır. Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirən Azərbaycan qadını ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpa edilməsində də yaxından iştirak etdi. Vətən müharibəsində hərbi tibb ocaqlarında xidmət edən qadın həkim və tibb bacıları könüllü surətdə döyüş zonalarına ezam olunaraq yaralılarımızın öz sağlamlığına qovuşması üçün əllərindən gələni əsirgəmədilər. Həmçinin Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində və digər sahələrdə xidmət edən yüzlərlə hərbi qulluqçu və mülki işlərdə çalışan qadınlarımızın da əməyi daim yüksək qiymətləndirilir.

**- Bildiyimiz kimi şəhid ailələri və qazilərlə görüşləriniz olur. Onların sosial-məişət şəraiti ilə yaxından maraqlanırsınız. Bu barədə nə deyə bilərsiniz?**

- Respublikamızda son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da ərazi bütövlüyümüz uğrunda şəhid olanların ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı yüksək səviyyədədir. Prezident İlham Əliyevin bu istiqamətdə imzaladığı Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə qayğısı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, onların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək ehtiramla qarşılanır.

Şöbəmizin əməkdaşları davamlı olaraq Vətən müharibəsi iştirakçılarının, şəhid və qazi ailələrinin yanında olur, onların tibbi müayinə və müalicəsi üçün aksiyalar həyata keçirir, əlamətdar günlərdə xüsusi tədbirlər təşkil edir, problemlərinin həllinə çalışır, ziyarət edərək hər ailəyə mənəvi dəstək olurlar. Vətən müharibəsində qazanılan Zəfərin ildönümündə Müdafiə Nazirliyinin rəhbər heyəti ilə birlikdə şəhid anaları ilə görüş keçirdik.

Şöbəmiz ötən il ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Qadın Şurasının iclaslarını keçirib. Bundan əlavə gender bərabərliyi ilə bağlı 18, şəhid və qazi ailələri ilə 21 tədbir keçirib, 78 şəhid ailəsini qəbul edib, 57 şəhid ailəsini ziyarət edib.

Şəhid və qazi ailələri ilə aparılan işləri daha da inkişaf etdirib təkmilləşdirmək məqsədilə ötən ilin dekabrın 15-dən 18-dək Türkiyə Cümhuriyyətinin Ankara şəhərində Müdafiə Nazirliyinin bir qrup zabiti ilə birlikdə işgüzar səfərdə olduq. Səfərimizin məqsədi şəhid və qazi ailələrinə yanaşma, münasibət, aparılan işlər haqqında fikir mübadiləsi, ortaq bilgilər əldə etmək idi. Səfər müddətində şəhid məzarlarını ziyarət edib ailələri ilə görüşdük. Mustafa Kamal Atatürkün və Məhəmməd Əmin Rəsulzadənin məzarlarına baş çəkdik.

**- Gender bərabərliyi cəmiyyətin inkişafında çox gərəklidir. Yəni, gender bərabərliyi cəmiyyətin mənəvi dünyasına düşən işıqdır.**

- Bəli, biz bu amili fəaliyyətimizin prioritetlərindən biri bilirik. Ümumilikdə Azərbaycan Ordusunda gender bərabərliyinin və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində görülən işlər, strateji məqsədlər nəzərə alınmaqla, bu gün də yüksək səviyyədə davam etdirilir.

**- Maraqlı söhbətə görə çox sağ olun.**

- Belə bir vacib məsələyə göstərilən diqqətə görə "Azərbaycan Ordusu" qəzetinin rəhbərliyinə və kollektivinə minnətdarlığımı bildirirəm...

**Söhbəti apardı:**
**baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda birləşmənin komanda-qərargah təlimi keçirilib



*Döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusunda birləşmənin ərazidə komanda-qərargah təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim-döyüş siqnalı ilə qaldırılan bölmələr təyin olunmuş rayonlarda cəmləşərək ərazidə idarəetmə orqanlarının açılması ilə döyüşə hazırolma vəziyyətinə gətirilib.

Təlimin keçirilməsində əsas məqsəd hərbi hissənin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı qərargahın fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirmək, eləcə də komandirlərin döyüşdə bölmələri idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaqdır.

Təlimdə şəxsi heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edib.



*Disput*

# Hər açılan səhərin rəngindədi Qələbə!

***2020-ci ilin payızı ruhumuzun fəsli oldu.***

***2020-ci ilin payızında əks-hücum kimi başlayan, Vətən müharibəsi kimi davam edən döyüşlər Zəfərlə başa çatdı. Azərbaycançılığın, milli ruhun, Vətənə sevginin, Vətən sevgisinin, xalqın orduya dəstəyinin, ordunun xalqa güvəncinin qələbəsi 30 ilə yaxın üzə duran, ermənilik buyruqçusu olan tarixi öz axarına qaytardı. Tarixi ədalət bərpa olundu; azərbaycançılıq erməniliyi məğlub etdi. Bir azdan əsgərlərin əhatəsində bu haqda danışacağıq. Onların düşüncələrini Zəfərin yaşanılan ovqatından düşən işıq biləcəyik, əsgərlər bu işığı hərbi xidmətdən sonra yaşayacaqları illərə yetirəcək, çağırışçılarla söhbətlərində, hərbi xidmət xatirələrində. Bu qələbə tarixi qələbədi. Bu qələbə dünyanın heyrətinə dönən qələbədi. Ona görə sevinci zərrəcə azalmayıb, azalmayacaq. Ona görə hər açılan səhərdə Zəfərin işığını görürük. Görürük ki, Vətən müharibəsi müqəddəs müharibə idi, müqəddəs müharibədə Azərbaycan əsgəri müqəddəs döyüşlərlə torpaqlarımızı işğaldan azad etdi.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsində xalqa müraciətində dediklərini də xatırlayacağıq, "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq" qürurunu yenidən, indi nəfəs-nəfəsə yaşayacağıq.

İşğaldan azad edilmiş ərazilərimizdə xidmət edən əsgərlərin əhatəsində bu düşüncələr gözəl könül xoşluğuna dönüb. Əsən külək yolların kənarında illərin intizarına dözüb yaşaya bilən, dağıdılmış evlərin həyətlərində quruyan ağacların yan-yörəsindən cücərən cavan ağacların budaqlarını titrədir. Kövrək görüntülərdi. Bu kövrəkliyi bir azdan əsgər düşüncələrindən boy göstərən fikirlər əvəzləyəcək. Vətən müharibəsindən əvvəl ön xətdə "Səni yaşatmaq üçün qoruyuruq, Ana Torpaq!" adlı disput keçirmişdik. Onda döyüş növbətçiliyinə gedən əsgərləri əsgər yoldaşlarının baxışları uğurlamışdı. Bu baxışlarda inam vardı, əminlik vardı.

Onda əsgər Fərman Hacıyev demişdi: "Səni yaşatmaq üçün qoruyuruq, Ana Torpaq!" kəlamını vətəndaşlığa epiqraf kimi yaşadacağıq. Hərbi xidmətdə də, hərbi xidmətdən sonra da. Bu yaşatma çağırışçıların hərbi xidmətə hazırlığında gərəkli olacaq. Bizdən sonra xidmət edəcək əsgərlər də bu kəlamı bu əqidəylə belə yaşadacaqlar". Əsgərlərə bunları xatırladıram və deyirəm ki, Fərman Vətən müharibəsi başlayana kimi tərxis edilmişdi. Əminəm ki, Vətən müharibəsi başlayanda o da döyüşlərə qatılmaq istəyib. Bilmirəm, xahişi yerinə yetirilibmi? Yerinə yetirilibsə, o da mərdliklə döyüşüb. Əsgər Gündüz Sultanlı sözümə qüvvət kimi deyir ki, belə düşünən oğullar mütləq döyüşlərə getməyə can atardılar. Əsgər Alxas Novruzov deyir ki, Fərmanın döyüşlərə getdiyinə, qəhrəmanlıqla döyüşdüyünə əminəm. Kaş onu tanıyaydıq. Əlini sıxardıq, döyüş təəssüratlarını dinləyərdik. Fərman da deyərdi ki, Zəfər tarixi zəfər olduğu üçün onun işığına zaval yoxdu. Yadıma düşür ki, Vətən müharibəsindən neçə aylar əvvəl ön xətdə, səngərdə əsgərlərə: "Hamımız bir Günəşin zərrəsiyik. O Günəş Vətəndi" demişdim. Əsgərlərin baxışları xeyli aralıda görünən vallara yönəlir. Baxışlarım o baxışlara sarılır. Elə bilirəm bir boy da dikəlmişəm. Əsgərlərdən birinin çatılan qaşlarının sözünü mətləbləşdirməyə çətinlik çəkirəm. Bu mətləb də Vətənə ad olan mətləbdi; Azərbaycan əsgəri Vətənli mətləblərin əsgəridi. Əsgərlərin bugünkü disputun mahiyyətində də işıq duyduğunu hiss edirəm və ürəyimdən keçən fikri bitirər-bitirməz əsgər İsmayıl Əhmədov deyir ki, orta məktəb illərində Nizami Gəncəvinin "Xeyir və Şər"ini də oxumuşduq. Müəllimimiz deyirdi ki, Xeyir işıq deməkdi, Şər qaranlıq. Mayor Mirsadiq Zeynalov onun fikrini düşündürücü, gərəkli bir fikirlə tamamlayır:

- Biz işıqlı niyyətlə formalaşmış bir xalqın ordusunun əsgəriyik. Bu ordu qalib ordudur. Qalib ordunun qazandığı Zəfər bəşəriyyətə düşən işıq kimidi. Ona görə hər biriniz böyük qürrə ilə deyirsiniz ki, hər səhərimiz Zəfər ovqatı ilə açılır.

- Yəni, hər biriniz deyirsiniz ki, hər açılan səhərimizdə Zəfər ovqatı var, Zəfər var. Yəni, 2020-ci il noyabrın 8-də qazanılan Zəfər Günəşə tən Zəfərdi, - deyirəm.

Kapitan Gülməmməd Rzazadə deyir ki, əsgər İsmayıl Əhmədovun dediklərinə bir əlavəm olacaq. Bəşəri niyyətlə yaşamaq Xeyiri təmsil etməkdi, bəşəri niyyətə düşmənçilik Şəri. Yəni, azərbaycançılıq Xeyirin, ermənilik Şərin timsalıdı.

Əsgərlərin baxışlarında bir qürur kükrəyir. Bu kükrəyiş mənə tanış kükrəyişdi. Vətən müharibəsindən əvvəl səngərdə əsgərlərlə söhbətləşəndə demişdim ki, "Səngər müvəqqəti dayanacaqdı Böyük Qələbənin yolları üstə". Onda əsgərlərin qaşları çatılmışdı, yumruqları düyünlənmişdi, hamısının əli avtomatın qundağını sıxmışdı. Bu ovqat döyüş əzminin, qələbə ruhunun ifadəsiydi. Bu ovqat səngərlərə sığışa bilməzdi. Əsgərlərin baxışlarında bir mətləb oxumuşdum: "Yaxın vaxtlarda səngərləri sərhədlərə köçürəcəyik". Bu niyyət işğalı sonlandırmaq niyyəti kimi yaşanılmışdı. Bu niyyət 2020-ci il noyabrın 8-də gerçəkləşdi. Bu gerçəkləşmə milli-xəlqi ruhun göyqurşağına döndü.

Əsgərlər fikrimi maraqla dinləyirlər.

Hamınız göyqurşağı görübsünüz. Hamınız göyqurşağının rənglərinin düzümünü, bir-birini gözəlliklə tamamlamasını həmişə maraqla, sevgilərlə izləyibsiniz. O rənglərin işığını gözlərinizə köçürübsünüz. Vətəndən, işğalda qalan torpaqlarımızdan söz düşəndə hərbi xidmətə tez getməyi arzulayıbsınız. Siz Vətən müharibəsində çağırışçı idiniz. Hərbi xidmətdə zabitlərinizin söhbətlərini, döyüş təəssüratlarını eşidirsiniz. Əmin olursunuz ki, Azərbaycan əsgəri işğal adında qaranlığı əritmək üçün döyüşüb. Döyüşüb və Zəfər qazanıb.

Əsgər Elşad Səlimov Vətən müharibəsi iştirakçısıdı. Döyüşlərdən, döyüşlərindən danışır. Deyir ki, Suqovuşan istiqamətində ağır döyüş gedirdi. Gecə düşmüşdü. Qaranlıqda qarşı tərəf görünməsə də, gülləyə güllələ, mərmiyə mərmiylə cavab verirdik. Əmr belədi ki, səhər açılar-açılmaz hücuma keçəcəkdik. O vaxta kimi düşməni bu döyüş taktikası ilə arxayınlaşdırmalıydıq. Dan yeri sökələndə hücum əmri verildi. İşıq işığa qarışdı. Açılan səhərin işığını atılan güllələrin işığı artırırdı.

- Yəni, işıq döyüş yolunuzun işığıydı, - deyirəm. Əsgər razılıqla gülümsünür. Mənim fikrimi kapitan Gülməmməd Rzazadə tamamlayır:

- O işıq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il sentyabrın 27-də verdiyi əks-hücum əməliyyatının, Vətən müharibəsinin başlaması əmrinin müqəddəslik işığıydı.

Kapitanın fikri hamımıza könül xoşluğu verir. Əmrin işığı - nə qədər gözəl səslənişdi! Bu səslənişdə bir qürur da var, sevgi də. Bu qürur da, sevgi də dövlətə, dövlətçiliyə, Hərbi anda sədaqətin ifadəsidi.

- Tarix heç nəyi unutmur. Şuşanın işğaldan azad edilməsi ilə nəticələnmiş döyüşləri də unutmayacaq. Bu döyüşü dünya indi də heyrətlə xatırlayır. Oxuduqlarından xatırlayır. Rus jurnalistinin yazdıqlarını da xatırlayır: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar". Bu etiraf yadların etirafıdı və belə etiraflarla siz də qürurlanırsınız, - deyirəm. Fikrimi baş leytenant Ruhi Cavadov tamamlayır:

- Əsgərlərimiz Zəfərin necə qazanıldığını əsgər yoldaşlarından, bizlərdən eşidiblər. Onlar hər təəssüratı tarix dərsi kimi dinləyirdi. Belə anlarda diqqətimi çəkən bir məqamı xatırlayıram: əsgərlər döyüşmüş əsgər yoldaşlarına həsəd aparırdılar.

Bəzi döyüş təəssüratları əsgərlərimizi əməlli-başlı duyğulandırırdı. Bu anlar mənə bir gerçəklik yaşadırdı: qazanılan Zəfər təkcə yaddaşlarda, tarixdə deyil, könüllərdə də yaşayacaq. Yaşanılanlarda işıq qüdrəti var. Yəni, qazanılan Zəfər işıqdı.

Bu fikrə bayaqdan bəri düşüncələrimizə düşən işıq, bu işığa Zəfərin zərrəsi demək keçir könlümdən, - deyirəm. Mayor Mirsadiq Zeynalov fikrimi təsdiqləyir. Vətən müharibəsindən əvvəl səngərli söhbətlərin birində milli ruhun yaşarılığından danışırdıq. Onda əsgərlərdən biri "Kaş son nəfəsimizəcən bu ruhun ətəyində yaşaya bilək" demişdi. Əlim ahəstəcə əsgərin çiyninə enmişdi. "Bu ruhun zərrəsi olmaq da səadətdi" demişdim. Əsgərlərdən biri dediklərimi şeir misrasına bənzətmişdi. O misra az sonra bir bəndlik şeirə dönmüşdü:

Sənə xidmət edirik...
Hər daşın səngərdi bizə,
İli ömür eləmək
Vətənə xidmətdi, Vətən!
Belə bir sevgi mənim
ruhumun can ortağıdı,
Bu ruhun zərrəsi olmaq da
səadətdi, Vətən!...

Bunu xatırladıram. Əsgərlərin düşüncələrinin nizamı mənə könül xoşluğu verir. Bayaqdan bəri nə deyiriksə, Zəfər - səhər səsləşməsinə istinad edib deyirik. Bu səsləşmə sökülən dan yerinin işığına, düşüncələrimizin nizamına dönür. Bu da Qələbənin qüdrətidi.

"Dünya gördü ki, Azərbaycan Ordusu qüdrətli ordudur. Vətən müharibəsində əsgəri də, zabiti də Vətən naminə hər döyüşü son döyüş bilib döyüşürdü. Dünya ona da əmin oldu ki, Dövlət Bayrağının işığında vuruşanlar məğlub olmur, ya qələbə qazanır, ya şəhid olur. Azərbaycan əsgəri kimi...", - deyirəm. Əsgərlər razılıqla bir-birilərinə baxırlar. Yaddaşa düşəsi baxışlardı. Həm də Zəfərdən barınan baxışlardı - nurlu, düşündürücü, doğma...

2020-ci il noyabrın 8-dən üzü bu yana səhərlərimiz o qədər gözəl ovqatla açılır ki!

İşğalın, işğalçılığın son nəfəsi olmuş Zəfər tarixin axarını dəyişdi. 28 il açılan səhərlərimizin rəngində bir həsrət vardı, könül qubarı vardı, nisgil vardı, yerə-göyə sığmayan bir haray vardı. Qələbə bu həsrəti bitirdi - səhərlərin rəngi durulaşdı, Qələbə könül qubarını kürüdü - səhərlərin rəngi durulaşdı, Qələbə nisgilə son qoydu - səhərlərin rəngi durulaşdı. Zəfər yerə-göyə sığmayan harayın hoyuna yetdi, səhərin rəngi duruldu. Ona görə hər açılan səhərin rəngindədi Qələbə!

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# "Komando hərbi hissəsində xidmət etməkdən qürur duyuram"

Komando hərbi hissəsində xidmət edən zabitlərimizi, gizirlərimizi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımızı bir-birindən bacarıqlı və peşəkar gördük. Bütün bunlar bizdə onlar haqqında xoş təəssüratlar oyatdı, rəğbət hissini artırdı.

Gizir Mirmehdi Babazadə 1992-ci ildə Lənkəran rayonunda dünyaya göz açıb. Lənkəran şəhərindəki 4 nömrəli orta məktəbdə təhsil alıb. Ordu sıralarına çağırılıb. Gənc əsgər kursunu "N" hərbi hissəsində keçib. Üç aydan sonra xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə davam etdirib. 2012-ci ildə əsgəri xidmətini başa vurub. Hərbçi olmaq istəyi ilə 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursunda oxuyub. Hərbi təhsilini uğurla başa vuraraq gizir kimi xidmətə başlayıb. 2017-ci ildə kəşfiyyatçı kursu keçərək istəyinə çatıb.

Mirmehdi Vətən müharibəsində iştirak edib. Qorxmadan, çəkinmədən həmişə öndə vuruşub, döyüşlərdə igidlik göstərib. Dəqiq atəş zərbələri ilə neçə-neçə erməni qəsbkarını məhv edib. Suqovuşan, Talış kəndləri, Murovdağ və Ağdam rayonu istiqamətində gedən əməliyyatlarda xüsusi fəallıq göstərib. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun hərbçisi kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medallarına layiq görülüb.

**- Yoldaş gizir, necə oldu ki, komando hərbi hissəsində xidmət etdiniz?**

- Hələ kiçik yaşlarımdan filmlərdən, verilişlərdən xüsusi təyinatlı hərbi hissələrdə xidmət edən əsgərlərin təlimlər zamanı nümayiş etdirdikləri hərəkətləri maraqla izləyirdim. Gördüklərimə heyran olurdum. Həmin anlarda özümü onların sıralarında hiss edirdim. Yaşa dolduqca ürəyimdəki arzular da böyüyürdü - mən də onlar kimi əsgər olmaq istəyirdim. 2017-ci ildə arzuma çatdım, kəşfiyyatçı oldum. Vətən müharibəsində də iştirak etdim, torpaqlarımızın azadlığı uğrunda vuruşdum. 2021-ci ilin iyulunda komandanlıq bacarığımı, səriştəmi nəzərə alaraq məni Türkiyə Respublikasında komando kursu keçməyə göndərdi. Keçirilən təlim-məşqlərdə, dərslərdə fəal iştirak etdik. Bu müddət ərzində bilik və bacarığımızı daha da təkmilləşdirdik. Kurslardan uğurla keçib Vətənə döndük. Sentyabrda komando hərbi hissəsi yaradılanda xidmətimi davam etdirmək üçün məni bura göndərdilər. Hərbi hissənin təntənəli açılışında da iştirak etdim, həyatımın xoş günlərindən birini yaşadım. İndi böyük həvəslə, yüksək ovqatla xidmətimi davam etdirirəm.



**- Arzuna çatdığına görə özünü xoşbəxt hiss edirsənmi?**

- Bəli, komando hərbi hissəsində xidmət etdiyimə görə çox xoşbəxtəm. Həyat amalım belədir ki, mən sıradan yox, həmişə fərqli, seçilmişlərdən biri olmaq istəmişəm. İndi istəyimə çatmışam, seçilmişlərdənəm. Bu gün bir vaxtlar verilişlərdə gördüyüm əsgərlər kimiyəm.

**- Komando hərbi hissəsində xidmət etmək çətindirmi?**

- İnsan güclü, qüvvətli yaranıb. Bu güc, bu qüdrət yenilməzdir, məğlubedilməzdir. Deməli, insan hər şeyə qadirdir. Ən çətini çətinliyin özünü dəf etməkdir. Mən artıq bütün çətinlikləri arxada qoymuşam. Düşünürəm ki, komando olmaq zəiflər üçün çətindir. Güclülər üçün isə elə bir çətinlik yoxdur. Mən də bu məsuliyyətli ixtisası seçmişəm və bundan qürur duyuram.

**- Türkiyə Respublikasında komando kurslarında olmusan. Bilik və bacarığını təkmilləşdirmisən. İndi peşəkarsan. Bu günə qədər əxz etdiyin bilikləri gənc əsgərlərə öyrədirsənmi?**

- Əlbəttə, keçirilən təlim-məşqlərdə sabahın komandoları olacaq əsgərlərə hərbi bilikləri öyrədirəm. Təkcə öyrətməklə kifayətlənmirəm. Həm də əsgərlərdə komando olmağa həvəs oyadıram, onlarda bu sahəyə sevgi aşılayıram. İstəyirəm ki, əsgərlərimiz ordumuzda sevə-sevə xidmət etsinlər, xidmət edə-edə sevsinlər. Bu sevgi heç vaxt tükənməsin.

**- Sənə və bütün xidmət yoldaşlarına uğurlar arzulayırıq. İnanırıq ki, yeni-yeni hərbi biliklər və döyüş vərdişlərinə yiyələndikcə gələcək xidmətlərinizdə böyük uğurlar qazanacaqsınız.**

- Çox sağ olun, buna tam əmin ola bilərsiniz. Günlər keçdikcə, yeni komando hərbi hissələri yarandıqca ordumuz daha da güclənəcək, xalqımızı yeni uğurlarımızla sevindirəcəyik.

**Müsahibəni apardı:**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Qarsdakı Kızılçubuk zirvəsində Sarıqamış şəhidlərinin anım mərasimi keçirilib



Türkiyənin Qars vilayətinin Sarıqamış rayonunda Sarıqamış şəhidlərinin xatirəsinə həsr olunan izdihamlı yürüş keçirilib.

Yürüşdən sonra Soğanlı və Allahu-Əkbər dağlarının arasında yerləşən Kızılçubuk zirvəsində keçirilən mərasimdə Türkiyənin milli müdafiə naziri Hulusi Akar, gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu və digər rəsmi şəxslər çıxış ediblər.

"Şühedanın izində" (Şəhidlərin izi ilə) şüarı ilə keçirilən mərasimdə yerli hərbi birliklərin komandanları, millət vəkilləri, bölgə ictimaiyyətinin təmsilçiləri, ölkənin müxtəlif bölgələrindən gələn ziyarətçilər iştirak ediblər.

Xatırladaq ki, Osmanlı Ordusu Birinci Dünya müharibəsində - 1914-cü il dekabrın 22-dən 1915-ci il yanvarın 6-dək davam edən Sarıqamış əməliyyatı zamanı mürəkkəb hava şərtləri səbəbindən minlərlə itki verib. Faciədən 107 il keçsə də, Sarıqamış şəhidlərinin xatirəsi Türkiyə xalqı tərəfindən dərin ehtiramla anılır. Hər il Türkiyə xalqı əziz şəhidlərinin xatirəsini böyük acı ilə qeyd edir. Yanvarın 8-də Qarsdakı Cıbıltəpə Xizək Mərkəzində Sarıqamış şəhidlərinin xatirəsinə hazırlanan "Qarı yorğan edənlər" abidəsinin açılışı olub.

## Norveç uzun illər istifadə etdiyi qırıcıları ən müasirləri ilə əvəzləyib



Norveç Kral Hərbi Hava Qüvvələri (HHQ) uzun illər istifadə etdiyi "Lockheed Martin F-16" qırıcılarını "Lockheed Martin F-35 Lightning II" tipli təyyarələrlə əvəzləyib.

Yeni təyyarələr 2022-ci ildən rəsmi olaraq Norveç hərbi aviasiyasının əsas qırıcıları kimi silahlanmaya daxil edilib.

Norveç Kral Hərbi Hava Qüvvələrinin yaydığı məlumata əsasən, 1980-ci ildən bəri HHQ-nin sərəncamında olan "F-16 AMBM" tipli 57 təyyarə bundan sonra istifadədən çıxarılacaq və "F-35A" ilə əvəzlənəcək.

Bu ölkə 2015-ci ildə əvvəlcədən sifariş etdiyi 52 ədəd "F-35" təyyarəsinin ilk partiyasını təhvil almağa başlayıb. Sonuncu təyyarənin 2025-ci ildə çatdırılması planlaşdırılır.

Yeni təyyarələrdən artıq fəal istifadə olunur. Silahlı qüvvələrə məxsus iki "F-35A" qırıcısı hazırlıq və çevik reaksiya tapşırıqlarını yerinə yetirir.

## Yonhap: KXDR daha bir ballistik raket buraxıb



Koreya Xalq Demokratik Respublikası (KXDR) yanvarın 11-də yerüstü qurğudan Şərq (yapon) dənizi istiqamətində naməlum raket buraxıb.

Bu barədə Yonhap agentliyi Cənubi Koreyanın Qərargah Rəisləri Komitəsinə istinadla məlumat yayıb. Güman olunur ki, yerli vaxtla saat 7:27-də buraxılan raket ballistikdir. Qərargah Rəisləri Komitəsi hazırda ABŞ-ın müvafiq qurumları ilə məsələnin detallarını araşdırır.

Bu, cari ildə KXDR-in 2-ci raket sınağıdır. Pxenyan yanvarın 5-də hipersəsli ballistik raket sınağını uğurla həyata keçirdiyini açıqlayıb. Raketin 700 kilometr məsafədəki şərti hədəfi məhv etdiyini bildirsə də, sürəti barədə məlumat verməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Komando qüvvələrinin yaradılması Azərbaycan Ordusunun hərbi qüdrətini daha da artıracaq"

***Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində son illər Azərbaycan Ordusunun inkişafı istiqamətində atılan mühüm addımlara diqqət çəkdi, gələcəklə bağlı planlardan danışdı. Prezident qeyd etdi ki, İkinci Qarabağ müharibəsi Azərbaycanın gücünü bütün dünyaya göstərdi. 2021-ci ildə Ermənistan-Azərbaycan sərhədində baş vermiş bəzi təxribatlar da Azərbaycanın üstünlüyü tamamilə öz əlində saxladığını sübut etdi. Komando qüvvələrinin yaradılmasına da toxunan dövlətimizin başçısı yeni hərbi qüvvələrin sayının yaxın gələcəkdə daha da artırılacağını bildirdi.***

Prezident İlham Əliyevin bu fikirlərini AZƏRTAC-a şərh edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov komanda qüvvələrinin yaradılmasının mühüm önəm kəsb etdiyini vurğulayaraq deyib: "Komando qüvvələrinin yaradılması Azərbaycanın hərbi gücünün artırılmasından, ordumuzun döyüş hazırlığının yüksəldilməsindən xəbər verir. Ali Baş Komandanın da qeyd etdiyi kimi, bu qüvvələr istənilən tapşırığı yüksək səviyyədə icra etməyə hazırdırlar. Biz İkinci Qarabağ müharibəsində xüsusi təyinatlılarımızın şücaətinə şahid olduq və onlar bütün dünyaya əsl qəhrəmanlıq nümunəsi göstərdilər. İndi isə komando qüvvələrinin timsalında Azərbaycanda yeni hərbi qüvvələr yaradılıb. Bu qüvvələrin gələcəkdə daha da artırılması nəzərdə tutulur. Hesab edirəm ki, komando qüvvələrinin yaradılması Azərbaycan Ordusunun hərbi qüdrətinin, zərbə gücünün daha da artırılmasına mühüm töhfə verəcək".

Cəlil Xəlilov Azərbaycan Ordusunun hərbi qüdrətinin artırılması, dövlətimizin təhlükəsizliyi və müdafiə qabiliyyətinin gücləndirilməsi üçün yeni hərbi texnikaların alınmasının, bu məsələdə qardaş Türkiyə dövləti ilə hərbi əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını bildirərək deyib: "Azərbaycan dövləti ordumuzun ehtiyaclarına uyğun olaraq dünyanın ən qabaqcıl ölkələrindən bir sıra hərbi texnikalar, silah-sursat alır. Bu proses gələcəkdə də davam etdiriləcək. Bununla bağlı Azərbaycanın Türkiyə ilə hərbi əməkdaşlığı xüsusilə faydalı və səmərəlidir. Müharibə dövründə Türkiyədən alınan müşahidə və zərbə dronları Qələbənin qazanılmasına mühüm töhfə verdi. Azərbaycanlı mütəxəssislərin peşəkarlıqla idarə etdikləri bu dronlar düşmənin canlı qüvvəsini, o cümlədən raket sistemlərinin, artilleriya qurğularının yerinin dəqiq müəyyənləşdirilməsində və məhv edilməsində mühüm rol oynadı. Türkiyə istehsalı olan bu dronların məhv etdiyi raketlər həm də Gəncə, Bərdə, Tərtər və digər şəhərləri, mülki insanları atəşə tutur, günahsız insanların qətlinə yol açırdı. Məhz bu dronlar həmin raketlərin məhvinə imkan verdi. Bununla da yüzlərlə mülki şəxsin təhlükəsizliyi təmin edildi".

Respublika Veteranlar Təşkilatının sədr müavini qeyd edib ki, real döyüş əməliyyatlarında bu texnikaların, hərbi sistemlərin özünü yüksək səviyyədə doğrultması qardaş Türkiyənin, onun hərbi sənayesinin uğuru idi. Bütün bunlar göstərdi ki, Türkiyənin hərbi sənayesi dünyanın ən qabaqcıl hərbi sənayeləri ilə uğurla rəqabət aparmağa qadirdir və imkanlarını, nüfuz və təsir dairəsini sürətlə genişləndirməkdədir. Bu baxımdan istər "Aselsan", istərsə də Türkiyənin digər hərbi təyinatlı şirkətləri ilə əməkdaşlıq Azərbaycan üçün olduqca önəmlidir. Bu, yalnız ordumuzun müasir hərbi texnikalarla təminatı baxımından deyil, həm də Azərbaycanın hərbi sənayesinin inkişafı üçün böyük əhəmiyyətə malikdir.

"İnanıram ki, yaxın gələcəkdə Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq mahiyyət etibarı ilə yeni mərhələyə qədəm qoyacaq. Bu əməkdaşlıq yeni və müasir hərbi məhsulların istehsalında özünü göstərəcək. Əməkdaşlığın bu şəkildə inkişafı həm Azərbaycanın, həm də qardaş Türkiyənin maraqlarına uyğundur. Bu, həm də bütövlükdə türk dünyasının gücünün artmasına, onun təhlükəsizliyinin güclənməsinə xidmət edir", - deyə C.Xəlilov əlavə edib.

*Əsgərin tribunası*

# “Yaxşı dost ən dəyərli hədiyyədir”



Məşhur Şotland ədəbiyyatçısı Robert Lui Stivenson dostluq və dost haqqında deyib ki, doğrudan da, əsl dosta sahib olmaq insanın həyatda qazandığı ən böyük nailiyyətlərdəndir. Dostu olan insan özünü yalnız hesab etməz. Həyatda elə anlar olur ki, insan dost köməyinə, dost dəstəyinə ehtiyac duyur. Ancaq dostluqda gərək daim tarazlığı qoruyasan. Necə ki, dostun ehtiyac duyduğun hər an yanında olur, ən özəl günlərində yanında olmadıqda belə varlığını hiss etdirməyə çalışırsa, sən də onunla eyni şəkildə davranmalısan. Yaxşı dostluğun sirlərindən biri də budur.

Dostluq münasibətləri müxtəlif yaşlarda, müxtəlif məkanlarda yaransa da, nəticə etibarilə mehribanlığın, səmimiyyətin sarsılmaz bağıdır. Məktəb vaxtı sinif yoldaşların arasında hansısa xarakterinə, düşüncə tərzinə görə özünə yaxın bildiklərin olur. Zaman keçdikcə qurulan münasibətlərdə əlaqələriniz möhkəmlənir, dürüst dostluğa çevrilir. Eləcə də hərbi xidmət illərində sarsılmaz dostluğu, əsl dostu tapanlar, bu dostluğu həyatının sonrakı mərhələlərində də davam etdirənlər az deyil. Təsadüfi deyil ki, hərbi xidmət dövründə qazanılan dostluq daha möhkəm və qırılmaz olur.

"N" hərbi hissəsində xidmət edən əsgər Rüfət Talıbovla əsgər Rəvan Abbasovun dostluğu əsgərlərimiz arasında bu münasibətlərin yüksək səviyyədə olmasına bir nümunədir. "Yaxşı dostun varsa, zəngin insansan", - deyə əsgər Rüfət Talıbov dostu barədə söhbətə başladı: "Hərbi xidmətə başladığım gündən əsgər yoldaşlarımın hər biri ilə səmimi münasibətim olub. Onlarla aramızda qarşılıqlı hörmət və mehribançılıq yaranıb. Burada özümə çoxlu dost qazanmışam. Asudə vaxtlarımızda bir yerə yığışıb öz aramızda maraqlı diskusiyalar edir, domino, şahmat, dama kimi stolüstü oyunlar oynayırıq. Doğrudan da, dostlarla keçirilən zaman insan üçün çox dəyərlidir. Xidmət zamanı müəyyən xasiyyətlərinə görə özümə ən yaxın bilib dost olduğum əsgərlərdən biri də Rəvan Abbasovdur. Rəvan xidmətə məndən əvvəl başladığı üçün ilk günlərdən öz dəstəyini əsirgəməyib, mənimsəyib öyrəndiyi bilikləri mənə də aşılamağa çalışıb. Əlbəttə ki, bizim dostluğumuz hərbi xidmətdən sonra da davam edəcək".

Əsgər Rəvan Abbasov da Rüfət kimi dost qazandığından məmnun olduğunu bildirdi. "Dostluq insan üçün çox müqəddəsdir. Hər bir insan həyatı boyu yaxşı dost axtarışındadır. Əsl dost insanın arxa və dayağıdır. Bəzən elə zamanlar olur ki, insan ailəsi ilə belə bölüşə bilmədiyi problemləri dostu ilə paylaşır. Asudə vaxtlarımızda Rüfətlə söhbətləşir, gələcək planlarımızdan danışırıq. Hərbi xidməti başa vurduqdan sonra bir arzumuz var. İstəyirik ki, düşmən işğalından azad olunan doğma Qarabağımızı qarış-qarış gəzib dilbər guşələrini görək. Gözəlliyi barədə valideynlərimizdən eşitdiyimiz qədim şəhərimiz Şuşada olan Gövhər ağa məscidini ziyarət edib, İsa bulağının sərin suyundan içək. Çox sevinirik ki, 30 illik həsrətə son qoyuldu, doğma torpaqlarımız düşmən işğalından azad edildi".

Əsgərlərimiz arasında belə səmimi dostluq münasibətlərinin olması sevindirici haldır. Hərbçilərimizi bir-birinə bağlayan Vətən sevgisi, onlar arasında olan birlik, yoldaşlıq, dostluq bizlərə qələbə sevincini yaşatdı. İnanıram ki, xidmət dövründə əsgərlərimiz arasında yaranan dostluq əbədi olacaqdır.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Əsgər məktubu



Salam anacan. Necəsən? Bu məktubu sənə qalib orduda xidmət etməyimdən qürurlanaraq yazıram. Yadındadır, sən həmişə deyərdin ki, oğlum, Vətən torpağı bizlərə əmanətdir. Əmanəti qoruyub saxlamaq hər bir vətəndaşın borcudur. Bu gün mən də əziz Vətənimin müdafiəsində dayanıb borcumu yerinə yetirirəm. Ana, gözün aydın, mən əsgərəm. Orduda olduğuma görə özümü xoşbəxt hiss edirəm. Xoşbəxtəm, ona görə ki, xalqımız əsgərlərinə daim inanır, güvənir. Xalqımızın 30 illik həsrətinə son qoyan, qələbə sevincini yaşadan ordunun əsgəri olmaq məni də sevindirir.

Ana, bilirsən, Vətənə layiqli xidmət etmək üçün bizlərə burada hər cür qayğı göstərilir. Yeməklərimiz sənin yeməyin kimi dadlıdır. Hər gün müxtəlif növ dadlı, yüksək keyfiyyətli təamlarla qidalanırıq. Müasir tələblərə cavab verən yataqxanamız var. Yataq dəstlərimiz hər həftəsonu yenisi ilə əvəz olunur. İsti və soyuq su - yu olan əl-üz yuma yerləri, səliqəli hamamımız var. Paltarlarımızı da hər həftə camaşırxanada yuyub özümüzə qaytarırlar. Asudə vaxtımızı səmərəli keçirməyimiz üçün ideo - loji otağımızda hər cür şərait yaradılıb. Bütün bunların qarşısında bizim üzərimizə sadəcə bir vəzifə düşür - keçirilən dərslərdə fəal iştirak edib, komandirlərimizin bizə öyrətdikləri bilikləri dərindən mənimsəmək, onların döyüş təcrübəsindən nümunə götürmək. Canım anam, bir sözlə, xidmətim əla keçir. Artıq sən də qü - rurla deyə bilərsən ki, dövlətimizin güclü ordusunda xidmət edən məğ - rur bir əsgər anasısan.

Atam, qardaşım və bacım necə - dirlər? Atama bildir ki, komandirləri - miz daim bizə diqqət göstərir. Onların diqqət və qayğısını hər an üzərimizdə hiss edirik. Yuxarı komandanlıq da tez-tez hərbi hissəmizə gəlir, şəraitimizlə maraqlanır. Xidmətim zamanı bir qərara gəlmişəm. İnanıram ki, bu qərarım sizi də sevindirəcək. Atam bir dəfə mənə dedi ki, həyatda özünə elə bir peşə seç ki, gələcəkdə onunla qürurlanasan. Hərbçi olmaq qərarına gəlmişəm, anacan. Düşünürəm ki, hərbçi olmaq, Vətənə xidmət etmək çox qürurludur. Xidmətimi başa vuran kimi yenidən orduya qayıdacağam. Komandirlərim də bu yolda mənə kömək olacaqlarını deyiblər. Bunun üçün hər gün fiziki hazırlığımı artırır, keçirilən dərslərdə fəal iştirak edirəm.

Biz burada xidmətimizlə bərabər, ölkə gündəmi ilə də məlumatlandırılırıq. Bilirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2022-ci il "Şuşa İli" elan edildi. Şuşa şəhəri dövlətimiz, xalqımız üçün dəyərlidir. Dövlət başçımızın diqqəti ilə işğaldan azad edilən torpaqlarımız yenidən qurulur. Aparılan yenidənqurma işləri bitdikdə şuşalılar, kəlbəcərlilər, füzulililər, zəngilanlılar artıq öz doğma torpaqlarına qayıdacaqlar. Bu böyük zəfərimizin nəticəsidir.

**Əsgər**
**Məhəmməd ƏSƏDOV**
**"N" hərbi hissəsi**

# İdman

## Şahmatçımız “Praqa open-2022” turnirində liderlər qrupunda mübarizə aparır



Çexiyada şahmat üzrə "Praqa open-2022" turnirində Azərbaycan şahmatçısı Azər Mirzəyev liderlər qrupunda mübarizə aparır.

Təmsilçimiz 3 turda maksimum (3 xal) xal qazanıb. Turnirdə 5-i qrossmeyster olmaqla, 185 şahmatçı iştirak edir.

İsveçrə sistemi üzrə keçirilən yarış 9 turdan ibarətdir.

## Paralimpiyaçılarımız ilk dəfə qış idman növləri üzrə dünya çempionatında iştirak edirlər



Paralimpiyaçılarımız ilk dəfə olaraq qış idman növləri üzrə dünya çempionatında iştirak edirlər. Azərbaycan Milli Paralimpiya Komitəsinin qış idman növləri üzrə milli komandasının üzvləri Mehman Ramazanzadə (kross-kantri) və Daşqın Abbasov (dağ xizəyi) baş məşqçi Məhəmməd İsmayılovun rəhbərliyi altında Norveçin Lillehammer şəhərində keçirilən dünya çempionatında mübarizə aparırlar.

Yanvarın 23-dək davam edəcək çempionat "Pekin-2022" Qış Paralimpiya Oyunlarına lisenziya xalı qazandırır.

Qeyd edək ki, Qış Paralimpiya Oyunları martın 4-13-də Çinin paytaxtı Pekində keçiriləcək.

## Cüdoçularımız Portuqaliyada Qran-Pri turnirində iştirak edəcəklər



Yanvarın 28-dən 30-dək Portuqaliyanın Odivelas şəhərində Qran-Pri turniri keçiriləcək.

Turnirdə Azərbaycan komandasının 14 cüdoçusunun iştirakı planlaşdırılıb. Belə ki, Balabəy Ağayev, Rövşən Əliyev (60 kq), Yaşar Nəcəfov (66 kq), Nəriman Mirzəyev, Zaməddin Poladov (73 kq), Elcan Hacıyev, Zelim Tçkayev (81 kq), Rüfət İsmayılov (90 kq), Adil Kərimli (100 kq), İmran Yusifov, Uşangi Kokauri (+100 kq) iştirak edəcəklər. Qadınların yarışında isə Aydan Vəliyeva, Şəfəq Həmidova (48 kq) və Səbinə Əliyeva (52 kq) mübarizə aparacaqlar.

Turnirdə 39 ölkədən 300-ə yaxın idmançı iştirakını təsdiqləyib.

## Amerikalı boksçu Floyd Meyvezer Dubayda nümayiş xarakterli döyüş keçirəcək



Amerikalı boksçu Floyd Meyvezer Dubayda nümayiş xarakterli döyüş keçirəcək.

Bu barədə "Boxing Scene" nəşri məlumat yayıb. Qarşılaşma fevralın 20-də baş tutacaq. Məlumatda bildirilib ki, boksçu hələ rəqib seçməyib.

Qırx üç yaşlı Meyvezer ən çox qazanan boksçu hesab olunur. O, filippinli boksçu Menni Pakyao ilə döyüşü zamanı rekord məbləğ - 210 milyon dollar qazanıb. Qeyri-rəsmi məlumatlara görə, onun Konor Makqreqor ilə qarşılaşması üçün 275 milyon dollar ödənilib. 2018-ci ilin iyul ayında "Forbes" F.Meyvezveri ən çox qazanan məşhurlar siyahısında birinci yerə layiq görüb.

F.Meyvezerin aktivində boks qaydaları üzrə 50 qarşılaşmada 50 qələbə var. O, 5 çəki dərəcəsində çempion adına layiq görülüb. 2017-ci il avqustun 26-da keçirilən sonuncu boks qarşılaşmasında amerikalı texniki nokautla irlandiyalı Konor Makqreqora qalib gəlib.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 83<br>Nüsxə 4044 |